**Azərbaycan COP29-da öz təşəbbüsləri ilə qlobal temperaturu 1,5 dərəcədə saxlamaq hədəfinə böyük töhfə verə bilər**

Azərbaycan COP29-da öz təşəbbüsləri ilə qlobal temperaturu 1,5 dərəcədə saxlamaq hədəfinə böyük töhfə verə bilər. Ümid edirəm ki, COP 29 uğurla keçəcək və böyük nailiyyətlər əldə edəcəyik.

Bunu AZƏRTAC- a müsahibəsində İndoneziyanın İqlimin itki və zərərə uyğunlaşma üzrə baş danışıqçısı İravan Asad deyib.

Qonaq COP29 məkanının yüksək səviyyədə təşkil olunduğunu da bildirib: "Hazırda bütün dünya, o cümlədən Azərbaycan və İndoneziya da iqlim dəyişmələrindən böyük əziyyət çəkir. Biz iqlim dəyişmələri ilə mübarizə və həll yollarını tapmaq üçün hər il görüşüb müzakirələr aparmalıyıq. Çünki iqlim dəyişmələri hər sahəyə təsir edir. Enerji sektoru, qida təhlükəsizliyi sahəsi, eləcə də uşaqlar da bu iqlim dəyişmələrindən böyük əziyyət çəkir".

**AZƏRTAC**
**2024, 11 noyabr**